2 Fevral – Gənclər Günüdür

# Dünya Azərbaycan gənclərini 2020-ci ilin payızında daha yaxşı tanıdı

*Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



**İyirminci əsrin son onilliyində qazandığımız dövlət müstəqilliyimizin ilk illərində ölkə gəncliyi, sözün həqiqi mənasında, pərakəndə fəaliyyət göstərirdi. Bəlkə, elə çoxsaylı məğlubiyyətlərimizdə bu faktın da rolu olmuşdur. Ulu öndər Heydər Əliyevin ölkənin rəhbərliyinə qayıtmasından sonra isə cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, gənclərlə iş məsələsində də möhtəşəm uğurlara imza atıldı. Nəticədə, Azərbaycan gəncliyi ölkənin aparıcı qüvvələrindən birinə çevrildi.**

Yeri gəlmişkən, ulu öndər Heydər Əliyev kimi İlham Əliyev də Prezident seçiləndən dərhal sonra ölkə gənclərinin nümayəndələri ilə görüşmüşdür. Sonra isə həmin görüşlər ənənə şəklini almış, gənclərə dövlət idarəetməsinin bütün qanadlarında etimad göstərilmişdir.

Bu yaxınlarda mətbuatda oxudum ki, həm 2020-ci ilin yaz-yay aylarında – koronavirus pandemiyasına qarşı aparılan mübarizənin qızğın çağında, həm də 44 günlük müharibənin şanlı Qələbə ilə nəticələnməsindən sonra Prezident İlham Əliyevə minnətdarlıq məktubu yazanların yarıdan çoxu məhz gənclərdir. Yəni ölkəmizin sabahı olan gənclər o sabahı quran, yaradan liderə inanır, etimad göstərir və dəstəkləyirlər.

Gənclər Günü münasibətilə hazırladığım yazıda dövlət başçımıza ünvanlanan minlərlə məktub arasından üçünü seçmək istədim. Birinci məktubu aprelin 11-də Zaqatala rayonundan Fizzə Mahmudova -- koronavirus pandemiyasına qarşı mübarizənin uğurlu təşkilinə görə qələmə alıb: “Mən bir gənc olaraq çox sevinirəm ki, Azərbaycan Respublikasına Sizin kimi müdrik, uzaqgörən siyasi xadim rəhbərlik edir. Sizin rəhbərliyinizlə ölkəmizdə gənclərin aparıcı qüvvəyə çevrilməsi istiqamətində böyük işlər görülür, dövlətçiliyə bağlı, yüksək intellektli və geniş dünyagörüşünə malik gənc nəsil formalaşır. Hər bir Azərbaycan gənci Sizin gördüyünüz işlərin dəyərini çox yaxşı bilir və hər zaman Sizə güvənir.

Vətəndaşların sağlamlığını düşünərək qabaqlayıcı tədbirlərin görülməsi, vəziyyətə uyğun zəruri addımların atılması, insanların sosial müdafiəsinin tam təmin olunması istiqamətində gördüyünüz bütün işlərə görə Zaqatala gəncləri adından Sizə təşəkkür edir, çətin və şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq. Allah Sizi qorusun!”

İkinci məktub 44 günlük müharibənin ən qızğın çağında – oktyabrın 31-də balakənli Alvina Cumayevadan gəlmişdir: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan! Mən Balakən gəncləri adından yazaraq Sizin siyasətinizi dəstəklədiyimizi bildirirəm. Qəbul etdiyiniz düzgün qərarlar nəticəsində ölkəmizin inkişafı və çiçəklənməsi biz gəncləri də çox sevindirir. Yürütdüyünüz müdrik və qətiyyətli siyasət nəticəsində dövlətimizin qazandığı uğurlar, rəşadətli Ordumuzun zəfərləri, düşmənlərimizə verilən layiqli cavablar bizdə qürur hissi yaşadır.

Allah Sizi və müzəffər Ordumuzu qorusun! Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!”

Üçüncü məktubu isə Sumqayıtda yaşayan Vüsalə Hacıyeva dekabrın 22-də, başqa bir xəstəliyə -- erməni faşizminə qarşı apardığımız mübarizədəki şanlı Qələbə münasibəti ilə yazıb: “ Möhtərəm cənab Prezident, icazə verin, möhtəşəm Qələbə münasibətilə Sizə dərin minnətdarlığımı bildirim. Siz təqvimdəki işğal günlərini ləğv edib, bizə Zəfər Günü yaşatdınız.

Hər zaman ürəyimizdə bir inam var idi ki, Ali Baş Komandanımız mütləq torpaqlarımızı işğaldan azad edəcək. Həmin gün nəhayət ki, gəlib yetişdi. Şükür Allaha ki, bu günləri yaşamaq bizə nəsib oldu. Çox xoşbəxtəm ki, səs verdiyim, dəstəklədiyim, qəlbən inandığım Prezidentimiz işğal altında olan bütün torpaqlarımızı azad etdi. Cənab Prezident, 44 günlük müharibə bütün dünyaya Sizin necə müdrik siyasi xadim, diplomat və güclü sərkərdə olduğunuzu, müzəffər ordu qurduğunuzu bir daha göstərdi. Sizin televiziya vasitəsilə etdiyiniz bütün çıxışları ailəlikcə sevə-sevə dinlədik və paylaşdıq, Sizinlə hər zaman qürur duyduq və bir an belə ümidsizliyə qapılmadıq... Bu xoşbəxtliyi bizə nəsib etdiyiniz üçün Sizə sonsuz minnətdarlığımı bildirirəm. Sizin rəhbərlik etdiyiniz ölkədə yaşadığım üçün çox xoşbəxtəm. Allah hər zaman Sizə kömək olsun!”

Bu sətirləri qələmə alarkən cənab Ali Baş Komandan, Prezident İlham Əliyevin ötənilki Gənclər Günü ərəfəsində gənclərin təmsilçiləri ilə görüşdə dediyi fikirlər yadıma düşür. O zaman Prezident xatırlatmışdı ki, biz Azərbaycanın dövlət maraqlarının keşiyində nəyin bahasına olursa-olsun durmuşuq. Bu yolda təzyiqlər də, yalanlar da, böhtanlar da, iftiralar da olub. Bunların heç biri bizi öz yolumuzdan döndərə bilməyib: “Ona görə ki, biz düzgün yoldayıq... Amma bu proses daimi olmalıdır, davam etməlidir. Buna görə siz gənclər buna hazır olmalısınız, hər şeyi bilməlisiniz. Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar”.

Xatırladaq ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin gələcək inkişafında dərin izlər buraxıb. Ulu öndərin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb. Digər sahələrdə olduğu kimi, bu sahədə də Azərbaycan bir çox ölkələri qabaqlayıb. Belə ki, Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (8-12 avqust 1998-ci il) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli 54/120 saylı qətnaməsi ilə 12 avqust -- Beynəlxalq Gənclər Günü elan edilib.

Gündəlik həyatda dövlətin daimi qayğı və diqqətini hiss edən ölkə gəncliyi göstərilən etimada, xoş münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil dövlətimiz naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, ərazi bütövlüyümüzün bərpası üçün canını əsirgəmir, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Başqa bir məqama da diqqət yönəltmək istərdim. Belə ki, ötən il fevralın 2-də “Xalq qəzeti”ndə əməkdaşımızın “Azərbaycan Ordusunda Gənclər Günü qeyd edilib” sərlövhəli xəbəri dərc edilmişdi. Orada deyilirdi ki, 2 fevral Gənclər Günü münasibətilə Əlahiddə Ümumqoşun Ordusu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində yerli icra hakimiyyəti orqanları və ictimai qurumların nümayəndələri ilə birgə bayram tədbirləri təşkil olunub...

Builki Gənclər Günündən əvvəl isə kütləvi informasiya vasitələrimiz yazdılar ki, Şuşada Gənclər Günü qeyd ediləcək. Bu xəbəri oxumaq nəinki gənclərimizin, hətta dünyanın hər yerində yaşayan bütün soydaşlarımızın sevinc, qürur və iftixar hisslərini coşdurdu. Sanki, hamı eyni sözü təkrarladı: Qarabağ Azərbaycandır! Bu xoş günü Azərbaycan insanına bəxş edən dövlət başçımıza və qüdrətli Ordumuza eşq olsun!

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***